*Qürurla anırıq*

# Ələsgər Novruzov





***Ələsgər Xanlar oğlu Novruzov 1 avqust 1949-cu ildə Azərbaycanın dilbər guşələrindən olan Laçının Kürdhacı kəndində dünyaya göz açmışdır.***

O, 1966-cı ildə Kürdhacı kənd orta məktəbini əla qiymətlərlə başa vurmuş, rayon üzrə keçirilən idman yarışlarında fərqlənmiş və diplomlara layiq görülmüşdür.

Ələsgər 1968-1970-ci illərdə əsgəri xidmətini ləyaqətlə yerinə yetirib dağlar qoynunda yerləşən, başı buludlardan nəm çəkən Laçına qayıtmışdı.

1971-ci ildə Şuşa Pedaqoji Texnikumuna daxil olmuş və 1973-cü ildə oranı bitirərək, bədən tərbiyəsi müəllimi ixtisasına yiyələnmişdir. Həmin ildən kəndlərindəki məktəbdə ixtisası üzrə əmək fəaliyyətinə başlamış, 1979-cu ildən isə Xocalı şəhərinə köçərək 1 saylı məktəbdə idman müəllimi işləmişdir.

1988-ci ildə yaradılmış Xocalının Müdafiə Şurasının ilk beş üzvündən biri də Ələsgər müəllim idi. Düşmənə qarşı keçirilən əksəməliyyatlarda Ələsgər müəllim həmişə fərqlənmiş, demək olar ki, ən cəsur döyüşçülərdən biri olmuşdur. O, 30-40 nəfərlik silahlı dəstəyə başçılıq edirdi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə... Xocalı soyqırımı... Ələsgər həmişəki kimi, yenə də öz döyüşçüləri ilə postda idi. Ermənilər onun rəhbərlik etdiyi dəstənin tutduğu mövqeyə nə qədər mərmi yağdırsa da, qəhrəman oğullarımız öz mövqelərindən çəkilmədilər. O müdhiş gecədə qüvvələrin bərabərsizliyi və döyüş sursatının tükənməsi nəticəsində faşist xislətli erməni vandalları cəsur döyüşçünü əsir götürdü. Ələsgər Xankəndidə işgəncə ilə qətlə yetirildi.

Azərbaycan Respublikası Prezidentinin 25 fevral 1997-ci il tarixli fərmanı ilə Ələsgər Xanlar oğlu Novruzov ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

**Qədir ASLAN,**
**"Respublika".**